İPƏK YOLU, No.3, 2020, səh.71-76

# İRAN İSLAM RESPUBLİKASININ ŞƏRQİ AZƏRBAYCAN OSTANININ İQTİSADİYYATININ İNKİŞAF VƏZİYYƏTİ VƏ ƏSAS İQTİQAMƏTLƏRİ

**Famil Həsənov**

AMEA İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan

**Xülasə.** Məqalədə İran İslam Respublikasında Şərqi Azərbaycan ostanının iqtisadiyyatının inkişafı müxtəlif aspektlər üzrə nəzərdən keçirilmişdir. Vilayətin iqtisadiyyatının inkişaf imkanlarını müəyyən etmək üçün sənaye, ticarət, kənd təsərrüfatı, maşınqayırma, neft emalı və s. kimi sahələrdə fəaliyyət göstərən müəssisələrin işləmə prinsipləri təhlil edilmişdir.

**Açar sözlər:** iqtisadiyyat, inkişaf, sənaye, maşınqayırma, kənd təsərrüfatı.

**THE SITUATION AND THE MAIN DIRECTIONS OF ECONOMIC DEVELOPMENT OF THE EASTERN AZERBAIJAN PROVINCE IN THE ISLAMIC REPUBLIC OF IRAN**

**Famil Hasanov**
*ANAS Institute of Economics, Baku, Azerbaijan*

**Abstract**. In the paper the development of the economy of the Eastern Azerbaijan province in the Islamic Republic of Iran was considered in various aspects. To determine the opportunities for the development of the economy of the province the operation principles of enterprises in the sectors, such as industry, trade, agriculture, oil industry, machine manufacturing were analyzed.
**Keywords**: economy, development, industry, machinemanifacturing, agriculture.

**СИТУАЦИЯ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ПРОВИНЦИИ ВОСТОЧНЫЙ АЗЕРБАЙДЖАН В ИСЛАМСКОЙ РЕСПУБЛИКЕ ИРАН**

**Фамиль Гасанов**
*Институт Экономики НАНА, Баку, Азербаджан*

**Резюме.** В статье рассматривается развитие экономики провинции Восточный Азербайджан в Исламской Республике Иран в различных аспектах. Для определения возможностей развития экономики провинции были проанализированы принципы работы предприятий, действующих в секторах промышленности торговли, сельское хозяйство, машиностроение, нефтепереработки и т.д.
**Ключевые слова:** экономика, развитие, промышленность, машиностроение, сельское хозяйство.

## 1. Giriş

İranın müasir inzibati - ərazi bölgüsünün əsası Qacarlar hakimiyyətinin (1795-1925) son dönəmində - 1906-cı ildə ölkə ərazisinin ostanlara (vilayətlərə) bölünməsi ilə qoyulmuşdur. 1937-ci ilin noyabr ayında İranın yeni bölgüsü aparılarkən ölkə 6 vilayətə bölündü. Həmin ilin dekabrında bölgü yenidən aparılaraq əvvəlcə 10, 1938-ci ildə 17, 1950-ci ildə 11, daha sonra 14, 1960-1970-ci illərdə 13 vilayətə bölündü [2, s.78-79].

İran İslam Respublikası elan olunduqdan sonra inzibati-ərazi bölgüsündə aparılan dəyişikliklər davam etdi. Ölkə yenidən 24, daha sonra 28 vilayətə bölündü. Son statistik hesablamalardan sonra 2006-2010-cu illərdə İranda ostanlara bölgü yenidən aparılaraq onların sayı 32-yə çatdırılmişdir [4].

Şərqi Azərbaycan ostanı İranın şimal-qərb hissəsində yerləşir. 1950-ci ildəAzərbaycanı şərq və qərb hissələrə bölünməsi əsasında yaradılmışdır. Şərqi Azərbaycan əsasən dağlıq ərazidir. Təpələr və dağlar üç silsilənin bir hissəsidir: Karadag, Sekhend və Bozkugi, həmçinin Sebelan [1].

Şərqi Azərbaycan ostanı İranın əsas sənaye mərkəzlərindən biridir. Bu sənaye sahələrinə şüşə, kağız istehsalı, polad, mis, neft-kimya emalı müəssisələri, kimya məhsulları, əczaçılıq, nəqliyyat vasitələri və avtomobil hissələri, sənaye maşınları,dəri və ayaqqabı istehsalı aiddir.

Şərqi Azərbaycan ostanında 5000-dən çox istehsal vahidi vardır ki, bu da ölkənin ümumi istehsal həcminin 6%-ni təşkil edir. 1997-ci ildən etibarən müxtəlif sahələrdən alınan məhsul dəyəri 374 milyon ABŞ dolları təşkil edirdi ki, bu da ölkənin ümumi istehsal həcminin 4,07%-dir.

## 2. İran İslam Respublikasının Şərqi Azərbaycan ostanının iqtisadi-coğrafi baxımdan dəyərləndirilməsi

Bundan əlavə, Şərqi Azərbaycan təbii minerallarla zəngin olması ilə də fərqlənir. Belə ki, bu vilayətdə 121-dən çox təbii mineralın istifadəsi təmin edilməkdədir. Cənubi Azərbaycanın əlverişli təbii iqlimi şəraiti - dağları, yüksəklikləri, dağarası çökəklilkləri, çayları, adaları, sahilləri, dərələri və s. landşaft sahələri vardır.

Şərqi Azərbaycan coğrafi baxımdan çox əlverişli mövqedə yerləşməsi onun iqtisadi imkanlarının inkişafına təsir edir. İranın Azərbaycan Respublikası, Ermənistan, Ərdəbil, Qərbi Azərbaycan və Zəncanvilayəti ilə həmsərhəd olması Şərqi Azərbaycan ostanını digər vilayətlərlə müqayisədə daha əhəmiyyətli edir. Ərazi baxımdan təqribən 47,830 km sahəni əhatə edir və əhalisinin sayı dörd milyona yaxındır. Burada iqtisadiyyatın davamlı inkişafına gətirib çıxaran əsas səbəblərdən biri qonşu ölkələrlə avtomobil və dəmiryolu şəbəkəsinin mövcud olmasıdır.

Şərqi Azərbaycan ostanı inzibati cəhətdən 20 şəhristandan ibarətdir.Ostanın tərkibinə Azərşəhr (Tufarqan), Bostanabad (Ucan), Bünab, Culfa, Çaroymaq, Əcəbşir, Əhər, Heris, Həştrud (Sərəskənd), Hurand, Kəleybər, Marağa, Məlikan, Mərənd, Miyanə, Sərab, Şəbüstər, Təbriz, Üskü, Vərziqan kimi şəhərlər daxildir.

Əhalisinin əksəriyyəti Azərbaycan türklərindən ibarətdir və Təbriz şəhəri bu ostanın mərkəzidir. Təbriz İranın şimal-qərbində ən sıx məskunlaşmış dördüncü şəhəri, tarixi paytaxtlardan biridir. Onun tarixi 3500 il bundan əvvəl Dəmir dövrünə təsadüf edir və ilk yaşayış məskənlərindən biri hesab edilir [7].

XVI əsrdə Təbriz şəhəri İranın Böyük İpək Yolundakı ən böyük ticarət mərkəzinə çevrilmiş, Türkiyə və Avropa ilə ticarət əlaqələrinin böyük hissəsi bu şəhər vasitəsilə həyata keçirilmişdir. Həmin dövrdə bir çox karvansaray, yaşayış evləri, məktəblər, məscidlər bir çox keçidlər tikilib istifadəyə verilmişdir. Odur ki, şəhərin müxtəlif dövrlərdə inkişafı ilə əlaqədar

olaraqtikinti də müxtəlif mərhələdə inkişaf etmişdir. Mənzil tikintisi xalq təsərrüfatının inkişafının mühüm elementlərindən biri olduğu üçün istər Təbriz şəhərində, istərsə də Şərqi Azərbaycan vilayətində inkişaf etməkdədir. Son illərdə 6,0 dəfə artdığı müşahidə edilmişdir.

XX əsrin ortalarında Təbriz şəhərində köklü surətdə dəyişikliklər baş vermişdir. Statistik göstəricilərə əsasən 1,7 milyondan çox əhalisi olan bu şəhər İranın ən böyük iqtisadi məskən və metropol bölgəsidir. Təbriz avtomobillər, dəzgahlar, emal zavodları, neft-kimya, tekstil və sement istehsalı sahələri üçün əsas ağır sənaye mərkəzidir. Yeyinti sənayesinə nəzər saldıqda isə şokalad, qurudulmuş qoz-findıq istehsalı mövcuddur. Həmçinin şəhər xalçaçılıq və zərgərlik məhsullarının istehsalı və satışı ilə də məşhurdur.

### 3. Şərqi Azərbaycan ostanında iqtisadiyyatın inkişaf istiqamətləri

Təbrizin iqtisadiyyatı ticarət, xidmət, səhiyyə, kiçik və ağır sənaye və əl sənətlərinə əsaslanır. Təbriz İranın əsas 100 şirkətindən dördünün yerləşdiyi şəhərdir: İTMCO, Palaz Moket, Kashi Təbriz, Şirin Asal.

İranda müasir dövrdə inkişaf etmiş sənaye müəssisələrindən biri də İran Traktorqayırma Şirkətidir. Bunların arasında ən böyük sənaye komplekslərindən biri Təbrizdə İran Traktor İstehsal Birliyi (İTMCO) hesab edilir. İTMCO-nun tərkibinə Maşın Sazi Təbriz CO, İran Dizel Mühərrik İstehsal Birliyi (İDEM), İran Nasosu,Təbriz Neft-Kimya kompleksi, Təbriz neft-kimya emalı və yüzlərlə kiçik sənaye sahələrini əhatə edən bir neçə sənaye bölgəsi də daxil olmaqla bir sıra digər sənaye kompleksi daxildir. Təkcə bu kompleks Yaxın Şərqdə ən yüksək tökmə qabiliyyətinə malikdir. İranda və digər ölkələrdə bir neçə istehsal filialı olan ən böyük traktor istehsalçısı sayılır**.**

1966-cı ildə Təbrizdə traktor zavodu təsis edilərək 1968-ci ildə 65 at gücündə traktorların montaj edilməsi ilə istehsala başlanmışdır. 1975-ci ildə ilk MF traktorlarının 4 növü bazara çıxarıldı [5, s.202].

Bununla da kənd təsərrüfatının mexanikləşdirilməsində yeni mərhələ başlamış oldu. Son illər ərzində traktor istehsalı sahəsində nəzərə çarpacaq nailiyyətlər əldə edilmişdir. Bununla belə daxili bazarın 94 faizinə və xarici bazarda bir faizdən artıq paya malik olmaqla dünya bazarlarında rəqabətə davamlıdır.

Şərqi Azərbaycanın ən mühüm fabriklərinə və iri şirkətlərin fəaliyyətinə nəzər salsaq iqtisadi inkişafın tempini müəyyən etmək mümkündür.Bunlardan İran Traktor İstehsalat Şirkəti (İTMCO): traktor, dizel mühərrikləri və digər avtomobil hissələri istehsalçısıdır və mərkəz ofisi Təbrizdə yerləşir. İTMCO bir neçə ölkədə istehsal sahələrinə malikdir və 10 ölkəyə müxtəlif məhsulları ixrac edir. Şirkət İSO 9001 auditindən keçmişdir, həçinin keyfiyyətə və ixraca görə bir neçə mükafat almışdır. Bu şirkət İranın ən uğurlu 100 şirkətindən biridir [7].

Digər ən mühüm şirkətlərdən biri Goldstone Tires markası altında fəaliyyət göstərən Ərdəbildə avtomobillər, ticarət yük maşınları, yarış maşınları və s. istehsalçı şirkətidir. Şirkət

hazırda İran Khodro Təbriz ilə Pengeot 206 Modelinin istehsalı üçün şinlərin hazırlanması ilə bağlı müqavilə bağlamışdır [2, s.118].

Nəzərə almaq lazımdır ki, "İran Khodro Təbriz" İranın qabaqcıl nəqliyyat vasitəsi istehsalçısıdır və baş ofisi Tehranda yerləşir. Tehranla yanaşı İranın ən böyük avtovobil zavodu və 5 avtomobil fabriki vardır. "İran Khodro Təbriz" 2014-cü ilə qədər 520 000 min avomobil istehsal etmişdir.

## 4. İranda Şərqi Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrin inkişafı və sanksiyaların iqtisadiyyata təsiri

Şərqi Azərbaycan ostanının iqtisadiyyatında ağır sənaye, qida sənayesi, kənd təsərrüfatı və əl sənətlərinə üstünlük təşkil edir. Məlumdur ki, ən böyük iqtisadi mərkəz ağır sənaye və qida sənayesinin əksəriyyətini ehtiva edən Təbrizdir. İran Azərbaycanının beynəlxalq ticarəti təşviq etmək üçün təyin edilmiş iki sərbəst ticarət zonası: Araz Azad Ticarət Zonası və Maku Azad Zonası vardır [3].

Araz Azad Ticarət Zonası Şərqi Azərbaycan vilayətində, İranın şimal-qərbində, Naxçıvan Muxtar Respublikasına, Ermənistana və Azərbaycan Respublikasına sərhəddə yerləşir. Belə ki, bu zonada mövcud olan istixana sayəsində hidropik məhsulların əkilməsi mümkün olmuşdur və bu sahə üzrə investisiyalar yatırılmışdır [1].

Bundan əlavə, ərzaq ticarəti də Şərqi Azərbaycanın iqtisadiyyatında mühüm yer tutur. İranın bütün ərzaq ixracatının 50%-dən çoxu İran Azərbaycananın payına düşür. Bölgədəki qida sənayesi üçün əsas mərkəz Şirin Asal, Aydın, Shoniz, Anata, Baraka və Çiçək istehsalçılarını əhatə edən Təbrizdir.

Son illərin statistikasına əsasən Şərqi Azərbaycan ostanında qeyri-neft məhsullarının ixracatı əhəmiyyətli dərəcədə artaraq 68 faiz təşkil etmişdi. Buradan cəmi 2.55 milyon ton məhsul ixrac edilmişdi. Qeyri-neft ixracatında ən böyük payı Təbriz gömrüyü tutur.

İran uzun illərdir ki, başda ABŞ olmaqla bir çox Avropa ölkələri tərəfindən sanksiyalara məruz qalır. Son 20 ildə İİR-də çoxlu sayda maşınqayırma, elektrotexnika və s. sahələrdə iri sənaye müəssisələri yaradılmışdır. Lakin qeyd etdiyimiz kimi, beynəlxalq əməkdaşlıq sahəsində ölkəyə tətbiq edilən embarqo ümumilikdə sənaye müəssisələrinin innovasiya fəallığının gücləndirilməsinə, müasir dünya tələbləri səviyyəsinə çatdırılmasına maneə törədir, İran iqtisadiyyatının zəifləməsinə səbəb olmuşdur.

Sanksiyalar ümumilikdə bütün ölkə üzrə tətbiq edildiyinə görə bu Şərqi Azərbaycanın iqtisadiyyatına da öz mənfi təsirini göstərir. Məhz bunun nəticəsidir ki, sənaye məhsullarının rəqabətqabiliyyətliliyi və dünya bazarına çıxarılması ilə bağlı vəziyyət qənaətbəxş olmamışdır. Təbii ki, xaricə çıxış imkanlarının məhdudluğu ilə yanaşı daxili problemlər (təhsilin keyfiyyətinin aşağı olması, biznes mühitinin zəif olması, siyası qeyri sabitlik və s.) də öz təsirini göstərir.

Məlumdur ki, İran 1979-cu ildən etibarən başlayan bu sanksiyalara uzun illərdir ki, kəskin etirazını bildirməkdədir. 2013-cu ilə qədər sanksiyaları aradan qaldırılması üçün bir sıra dövlətlərlə: ABŞ, Böyük Britaniya, Çin, Rusiya, Almaniya və Fransa da daxil olmaqla danışıqlıqlarabaşlandı. 2015-ci ildə bu ölkələrlə müqavilə bağlandı və 2016-ci ilə qədər sanksiyalar nisbətən aradan qaldırıldı. Ancaq bu müvəqqəti xarakter daşıdı, hazırda çoxsaylı sanksiyaların tətbiqi davam edir ki, bu da müəssisələrin fəaliyyətinə öz mənfi təsir göstərir. Biz aşağıdakı cədvələ nəzər salsaq bunun təsirini görərik (cədvəl 1).

**Cədvəl 1.** İİR-nın Ümumi Daxili Məhsulunun göstəricisi
(2010-2020-ci illər üzrə (dollar ilə)

| İllər | ÜDM –nin dəyəri(dollar ilə) |
|---|---|
| 2020 | 1,411.09 |
| 2019 | 1,491.45 |
| 2018 | 1,586.22 |
| 2017 | 1, 637.22 |
| 2016 | 1,549.14 |
| 2015 | 1, 362.67 |
| 2014 | 1, 370.37 |
| 2013 | 1, 303.56 |
| 2012 | 1, 285.27 |
| 2011 | 1,366.49 |
| 2010 | 1, 298.76 |

Mənbə: www.statistika.com [8].

Cədvəldən göründüyü kimi 2010-2020-ciillərdə ölkə üzrə ÜDM-də müəyyən qədər artım müşahidə edilməsinə baxmayaraq, əvvəlki illərlə müqayisədə 2020-ci ildə geriləmə baş vermiş, sanksiyaların yaratdığı təzyiqi də nəzərə alsaq o zaman qarşıdakı illərin İran iqtisadiyyatı üçün ağır keçəcəyini ehtimal etmək olar. Ümumiyyətlə, İranda iqtisadi sistem siyasi sistemlə çox bağlı olduğu üçün iqtisadi islahatlar zəif gedir və onların effektiviliyi isə zəif olur. İran ətrafında davam edən gərginlik dünya bazarında neft qiymətlərinin artımına səbəb ola bilər. Bu isə həm dünya iqtisadiyyatına, həm də region ölkələrinin iqtisadiyyatına mənfi təsir edə bilər [9].

Şərqi Azərbaycan İranın mühüm sənaye mərkəzlərindən biri olduğu üçün bu ostanda istehsal olunan məhsulların dünya bazarına çıxarılması zamanı sanksiyaların tətbiqi şəraitində problemlərlə üzləşməsi halları mövcud olmuşdur. Lakin nəzərə almaq lazımdır ki, Şərqi Azərbaycan həmçinin həmsərhəq olduğu ölkələrlə iqtisadi və ticarət münasibətlərində heç bir sanksiya mövcud deyildir. Xüsusilə, Azərbaycanla beynəlxalq münasibətlər yüksək səviyyədədir. Baxmayaraq ki, İran və Azərbaycan Avropa bazarına əsas qaz tədarükçiləri olmaq potensialı vardır. İran özünü Trans-Anadolu və Trans-Adriatik qaz kəməri layihələrində əsas oyunçu kimi cəlb edə bilər. Bu baxmdan İran xarici şirkətləri

sanksiyalardan sonrakı dövrdə öz enerji sektoruna investisiya qoymağa dəvət edir.Azərbaycan şirkətlərinin də bu sahədə potensial rolu var, mövcud enerji sektoruna investisiya yatırmaq istəyənlər kifayət qədərdir. Enerji sahəsindəki əməkdaşlıq həm İran, həm də Azərbaycana qarşılıqlı münasibətləri inkişaf etdirməyə kömək edə bilər.

Bununla yanaşı İranın Azərbaycanla iqtisadi əlaqələri təbii qaz, neft, elektrik, ticarət, gömrük, tikinti, rabitə və nəqliyyat sahələrini əhatə edir. Qeyd etmək lazımdır ki, sanksiyalardan sonrakı dövrdə İranın istehlak bazarlarına neft və qaz ixrac etməsi ümidi ilə infrastrukturu qurmaq vəzifəsi ilə üzləşmişdir. Mövcud şəraitdə Azərbaycan dövləti İranı TANAP və TAP layihələri ilə yanaşı Bakı-Tbilisi-Ceyhan neft kəmərindən istifadə etməklə Azərbaycanın infrastrukturundan istifadə etməyə dəvət etmişdir.

**Nəticə.** Şərqi Azərbaycan ostanı İran İslam Respublikasının inkişafında mühüm rol oynayır. İndiki şəraitdə ölkə iqtisadiyyatının diversifikasiyası, sənaye məhsulları istehsalında innovasiya yükünün artırılması, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalına nail olunması ən vacib problemlərdən biridir. Belə ki, son illərdə xammal resurslarının ixracı üzərində möhkəmlənən iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı hesabına daha da möhkəmləndirilməsi qarşıda duran əsas prioritetlərdən birinə çevrilmişdir. Qeyd edək ki, son bir neçə ildə bu sahədə müəyyən irəliləyişlərə nail olunsa da, ciddi problemlər hələ də qalmaqdadır.

İqtisadi-coğrafi baxımdan əlverişli mövqeyi, zəngin mineral və təbii ehtiyatları, sənaye, ticarət, maşınqayırma, qida və kənd təsərrüfatı kimi sahələrin mövcudluğu, turizmin inkişaf potensialının olması Şərqi Azərbaycan ostanının əhəmiyyətini sübut edir. Xalçaçılıq və əl sənəti məhsullarının istehsalı və ixracına görə dünya ölkələri arasıda qabaqcıl yer tutur. Xüsusilə müxtəlif sənaye sahələrində istehsal olunan məhsulların payına görə də Şərqi Azərbaycan ostanı digərlərilə müqayisədə üstünlük təşkil edir. Bütün bu faktları dəyərləndirərək qeyd etmək olar ki, Şərqi Azərbaycan ostanı gələcəkdə İİR-da istehsal mərkəzi kimi daha da inkişaf göstərəcəkdir.

### Ədəbiyyat

1. İrani R. (2013), Daxili iqtisadiyyat, Tehran, 314s.
2. Maqsudi M. (2019), İran müəssisəsinin iqtisadiyyatı. Tehran, 2019, 512s.
3. Musayeva C. (2019), XX əsrdə Güney Azərbaycan ərazisində aparılmış inzibati-ərazi bölgüsü haqqında, Olaylar, №17-18, s.10.
4. Mustafayev V. (2002), Cənubi Azərbaycan məsələsinin öyrənilməsi, Bakı: Nurlan, 114s.
5. İranın traktor şirkətləri, İranın statistik göstəriciləri. - Tehran: İran Mərkəzi Statistika İdarəsi, 2012, 250s.
6. www.stat.gov.az Sənaye və mədən təşkilatının statistik rəqəmləri, 2008, № 1, s.10-28.
7. https://geosfera.org/aziya/iran/2940-vostochnyy-azerbaydzhan.html nikrahtire.com
8. www.statistika.com